| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 04.09.2012 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 695 |
| **ADI** | “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 07-09-2012, Nəşr nömrəsi: 199), Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 15-09-2012, Nəşr nömrəsi: 206), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-09-2012, Nəşr nömrəsi: 09, Maddə nömrəsi: 847) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 07.09.2012 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 140.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201209040695 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 07.09.2012 |

**Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. dörd ay müddətində:

1.4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.2. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikinti layihələrini ekspertizadan keçirən ekspertiza müəssisələrinin yanlış rəyi nəticəsində tikinti obyektinə dəymiş ziyana görə mülki və inzibati məsuliyyət müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.3. dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.4. həmin Məcəllənin 90.4-cü maddəsinə uyğun olaraq, tikinti layihələrinin ekspertizadan keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.5. həmin Məcəllənin 92.10-cu maddəsinə uyğun olaraq, tikinti işlərinin dayandırılması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.6. həmin Məcəllənin 95.7-ci maddəsinə uyğun olaraq, tikinti obyektlərinin sökülməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.7. həmin Məcəllənin 97.5-ci maddəsinə uyğun olaraq, tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. həmin Məcəllənin 47.4.3-cü və 95.1.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. beş ay müddətində:

1.6.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

1.6.2. həmin Məcəllənin 16.2-ci maddəsinə uyğun olaraq, şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin təşkili və fəaliyyəti qaydasını, eləcə də sistemə daxil edilən məlumatların tərkibini, həmin məlumatların təqdim edilməsi və işlənilməsi qaydalarını *Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin*;[1]

1.6.3. həmin Məcəllənin 20.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, qonşu ərazi vahidlərinin ərazi planlaşdırılması sənədlərini bir-birilə razılaşdırma qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.4. həmin Məcəllənin 22.7-ci maddəsinə uyğun olaraq, ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.5. həmin Məcəllənin 30.3-cü maddəsinə uyğun olaraq, ərazi planlaşdırılması ilə bağlı ictimai müzakirələrin təşkili və keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.6. həmin Məcəllənin 32.3-cü maddəsinə uyğun olaraq, ümumi və baş planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.7. həmin Məcəllənin 33.3-cü maddəsinin üçüncü cümləsinə uyğun olaraq, monitorinqin predmetini və həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.8. həmin Məcəllənin 34.3-cü maddəsinə uyğun olaraq, müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydalarını, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

~~1.6.9. həmin Məcəllənin 52.3-cü maddəsinə uyğun olaraq, peşəkarlıq sertifikatlarının verilməsi və ya ləğv edilməsi~~

qaydalarını, habelə sertifikatlaşdırılmalı peşələrin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;[2]

1.6.10. həmin Məcəllənin 55.1-ci maddəsinə uyğun olaraq, tikinti materiallarının və məmulatının standartlara uyğunluğunun yoxlanılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.11. həmin Məcəllənin 55.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, akkreditasiya qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.12. həmin Məcəllənin 57.3-cü maddəsinə uyğun olaraq, Məcəllənin 57.2.5-57.2.6-cı maddələrində nəzərdə tutulmuş tələblərlə bağlı qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.13. həmin Məcəllənin 58.4-cü maddəsinə uyğun olaraq, mühəndis-axtarış işlərinin yerinə yetirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.14. həmin Məcəllənin 60.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş tələblərlə bağlı qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;[3]

1.6.15. həmin Məcəllənin 63.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.16. həmin Məcəllənin 67.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi hallarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.17. həmin Məcəllənin 69.8-ci maddəsinə uyğun olaraq, ara məsafəsi ilə bağlı müfəssəl qaydaları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.18. həmin Məcəllənin *75.10-cu* maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısını və onların tətbiqi hallarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;[4]

1.6.19. həmin Məcəllənin 77.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı halları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.20. həmin Məcəllənin 78.1-ci maddəsinə uyğun olaraq, təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.21. həmin Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq, təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

1.6.22. həmin Məcəllənin 83.0.5-ci maddəsinə uyğun olaraq, tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan halları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.23. həmin Məcəllənin 98.3-cü maddəsinə uyğun olaraq, texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.24. həmin Məcəllənin 101.4-cü maddəsinə uyğun olaraq, tikinti obyektinin istismarına icazənin vahid formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;[5]

1.6.25. həmin Məcəllənin 102.8-ci maddəsinə uyğun olaraq, tikinti sənədlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.6.26. həmin Məcəllənin 104.4-cü maddəsinə uyğun olaraq, Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibini, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin;

1.7. altı ay müddətində:

1.7.1. tikinti fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsinə dair qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.2. "İcbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda tikinti fəaliyyəti subyektlərinin peşə məsuliyyətinin icbari sığortası ilə bağlı dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.3. "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.4. şəhərsalma kadastrının yaradılması və aparılması qaydaları ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7.5. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 15-ci maddəsində nəzərdə tutulmuş şəhərsalma və tikintiyə dair normativ sənədlər sisteminin konsepsiyası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi üç ay müddətində:

3.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 59.1-ci maddəsinə uyğun olaraq, tikinti

obyektinin sahəsinin və həcminin hesablanması qaydalarını müəyyən etsin;

3.2. həmin Məcəllənin 73.1-ci maddəsində nəzərdə tutulmuş halları müəyyən etsin.

4. Müəyyən edilsin ki:

*4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.5-ci, 13-cü maddəsində (ikinci halda), 20.4-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 24.1-ci maddəsində (ikinci halda), 24.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 34.2-ci maddəsində (ikinci halda), 34.4-cü maddəsinin birinci cümləsində (ikinci halda), 35.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) və üçüncü cümləsində (ikinci halda), 35.3-cü (ikinci halda) və 38-ci (ikinci halda) maddələrində, 40-cı maddəsinin ikinci cümləsində (ikinci halda), 41-ci maddəsində (ikinci halda), 42.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.3-cü (ikinci halda), 44.1-ci (ikinci halda), 44.3-cü (ikinci halda), 47.3-cü maddələrində, 47.4.5-ci (ikinci və üçüncü hallarda), 47.4.6-cı (ikinci və üçüncü hallarda), 48.3.1-ci (ikinci halda), 48.3.3-cü (ikinci halda) maddələrində, 48.3.5-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 49.2.11-ci maddəsində (ikinci halda), 66.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 75.15-ci, 76.1-ci (ikinci halda), 76.2-ci (ikinci halda) maddələrində, 80.4-cü maddəsinin birinci cümləsində (ikinci halda) və ikinci cümləsində (ikinci halda), 80.6-cı maddəsinin birinci cümləsində (ikinci halda), 81.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 81.2-ci, 81.4-cü, 82.1-ci (ikinci halda), 82.2-ci (ikinci halda) maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 84.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 84.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 86.1.1-ci maddəsində (ikinci halda), 86.3-cü maddəsinin birinci cümləsində (ikinci halda), 89.2-ci maddəsində (ikinci halda), 90.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 90.3-cü (ikinci halda), 90.4-cü, 92.10-cu, 92-1.1-ci, 92-1.2-ci (hər üç halda) maddələrində, 93.1-ci maddəsinin birinci cümləsində (üçüncü halda), 94.3-cü maddəsində (ikinci halda), 95.3-1-ci maddəsinin birinci cümləsində, 95.5-ci (ikinci halda), 95.7-ci, 97.5-ci maddələrində, 101.2-ci maddəsində (ikinci və üçüncü hallarda), 102.2-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 102.3-cü maddəsinin birinci (ikinci halda) və üçüncü (ikinci halda) cümlələrində, 102.4-cü maddəsində (ikinci və üçüncü hallarda), 102.4-1-ci maddəsinin birinci (ikinci halda) və ikinci (ikinci halda) cümlələrində və 102.4-2-ci maddəsinin ikinci (ikinci halda) cümləsində, 102.4-3-cü maddəsinin üçüncü (ikinci halda) cümləsində, 102.5-ci maddəsində (ikinci və üçüncü hallarda), 102.6-cı maddəsinin birinci cümləsində (ikinci halda), 102.7-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 103.2-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 106-cı maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[6]

*4.2. həmin Məcəllənin 16.2-ci maddəsində, 20.2-ci maddəsinin üçüncü cümləsində, 22.7-ci, 30.3-cü, 32.2-ci, 32.3-cü, 33.1-ci maddələrində, 33.3-cü maddəsinin üçüncü cümləsində, 34.3-cü maddəsində, 35.1-ci maddəsinin ikinci cümləsində, 55.1-ci maddəsində, 55.2-ci maddəsinin ikinci cümləsində, 57.3-cü, 58.4-cü maddələrində, 63.1-ci maddəsinin ikinci cümləsində, 67.4-cü maddəsinin ikinci cümləsində, 69.8-ci maddəsində, 75.6-cı maddəsində, 75.10-cu maddəsinin ikinci cümləsində, 75.11-ci maddəsinin ikinci və dördüncü cümlələrində, 77.2-ci maddəsinin ikinci cümləsində, 78.1-ci, 78.2-ci, 83.0.5-ci, 83.0.6-cı, 98.3-cü, 101.4-cü, 102.8-ci, 104.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*[7]

4.3. həmin Məcəllənin 4.3-cü, 5.2-ci, *48.3.1-ci (birinci halda) maddələrində, 66.3-cü maddəsinin ikinci cümləsində (birinci halda)* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[8]

4.4. həmin Məcəllənin *13-cü maddəsində (birinci halda), 20.4-cü maddəsinin ikinci cümləsində (birinci halda), 24.1-ci maddəsində (birinci halda), 24.2-ci maddəsinin birinci cümləsində (birinci halda)* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini ümumi və baş planlara münasibətdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, müfəssəl planlara münasibətdə isə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[9]

4.5. həmin Məcəllənin 14.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.6. həmin Məcəllənin 32.4-cü maddəsində, 33.3-cü maddəsinin birinci cümləsində, 34.2-ci *maddəsində (birinci halda),* 44.1-ci *(dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinə, onların ərazilərinə və mühafizə zonalarına münasibətdə isə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə) maddəsində (birinci halda),* ~~*58.2-ci* maddəsinin ikinci cümləsində,~~ 59.1-ci, 73.1-ci, 104.2-ci maddələrində, 104.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir;[10]

*4.7. həmin Məcəllənin 34.4-cü maddəsinin birinci cümləsində (birinci halda), 35.1-ci maddəsinin birinci (birinci halda) və üçüncü (birinci halda) cümlələrində, 35.3-cü maddəsində (birinci halda), 38-ci maddəsində (birinci halda), 40-cı maddəsinin ikinci cümləsində (birinci halda), 41-ci maddəsində (birinci halda), 42.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 43.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 43.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 43.3-cü (birinci halda), 44.3-cü (birinci halda), 47.4.5-ci (birinci halda), 47.4.6-cı (birinci halda), 48.3.3-cü (birinci halda) maddələrində, 80.4-cü maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində, 80.6-cı maddəsinin birinci cümləsində (birinci halda), 82.2-ci (birinci halda), 89.2-ci (birinci halda) maddələrində, 90.1-ci maddəsinin ikinci cümləsində (birinci halda), 90.3-cü (birinci halda), 94.3-cü (birinci halda), 102.6-cı (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*[11]

*4.7-1. həmin Məcəllənin 75.1-ci, 75.2-ci və 75.3-cü maddələrinin birinci cümlələrində, 75.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 75.5-ci maddəsində, 75.7-ci maddəsinin ikinci cümləsində, 75.8-ci maddəsində, 75.9-cu maddəsində, 75.10-cu maddəsinin birinci cümləsində, 75.13-cü maddəsində, 75.14-cü maddəsinin birinci cümləsində, 76.1-ci (birinci halda), 76.2-ci (birinci halda), 82.1-ci (birinci halda) maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 84.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 86.1.1-ci maddəsində (birinci halda), 86.3-cü maddəsinin birinci cümləsində (birinci halda), 101.2-ci maddəsində (birinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 102.3-cü maddəsinin birinci (birinci halda) və üçüncü (birinci halda) cümlələrində, 102.4-cü (birinci halda), 102.4-1-ci maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində və 102.4-2-ci maddəsinin ikinci (birinci halda) cümləsində, 102.4-3-cü maddəsinin üçüncü (birinci halda) cümləsində, 102.5-ci (birinci halda) maddələrində, 102.7-ci maddəsinin birinci cümləsində (birinci halda), 103.2-ci maddəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:*[12]

*4.7-1.1. həmin Məcəllənin 78.2-ci maddəsində nəzərdə tutulmuş dövlət əhəmiyyətli tikinti obyektlərinə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;*[13]

*4.7-1.2. digər tikinti obyektlərinə münasibətdə (dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə – həmin Məcəllənin 75.1-ci maddəsinin birinci cümləsinə əsasən, tikintiyə icazə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə verilməklə):*[14]

*1. Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinə münasibətdə – yanındakı Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi qismində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;*

*2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində tikinti obyektlərinə münasibətdə – yanındakı Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi qismində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;*[15]

*3. bir neçə şəhər və (və ya) rayon (şəhər rayonu istisna olmaqla) inzibati ərazi vahidi ərazisində yerləşən tikinti obyektlərinə münasibətdə – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi;*

*4. digər inzibati ərazi vahidlərində tikinti obyektlərinə münasibətdə – yerli icra hakimiyyəti orqanları;* [16]

*4.7-2. həmin Məcəllənin 47.4.5-ci (ikinci halda), 47.4.6-cı (ikinci halda) maddələrində, 81.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 81.2-ci, 81.4-cü, 92-1.1-ci, 92-1.2-ci (hər üç halda) maddələrində, 93.1-ci və 95.3-1-ci maddələrinin birinci cümlələrində, 95.5-ci, 101.2-ci (ikinci halda) maddələrində, 102.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 102.4-cü (ikinci halda), 102.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 102.4-2-ci maddəsinin ikinci cümləsində, 102.4-3-cü maddəsinin üçüncü cümləsində, 102.5-ci (ikinci halda) maddələrində, 102.7-ci maddəsinin birinci cümləsində (ikinci halda), 103.2-ci maddəsinin birinci cümləsində (ikinci halda) "qurum" dedikdə Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində ~~isə~~ "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisinə münasibətdə isə Dənizkənarı Bulvar İdarəsi nəzərdə tutulur;*[17]

*4.7-3. həmin Məcəllənin 13-cü maddəsində, 20.4-cü maddəsinin ikinci cümləsində, 24.1-ci maddəsində, 24.2-ci maddəsinin birinci cümləsində, 34.2-ci maddəsində, 34.4-cü maddəsinin birinci cümləsində, 35.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 35.3-cü və 38-ci maddələrində, 40-cı maddəsinin ikinci cümləsində, 41-ci maddəsində, 42.1-ci maddəsinin birinci cümləsində, 43.1-ci maddəsinin birinci cümləsində, 43.2-ci maddəsinin birinci cümləsində, 43.3-cü, 44.1-ci, 44.3-cü, 47.4.5-ci (birinci halda), 47.4.6-cı (birinci halda), 48.3.1-ci, 48.3.3-cü maddələrində, 48.3.5-ci maddəsinin ikinci cümləsində, 49.2.11-ci maddəsində, 66.3-cü maddəsinin ikinci cümləsində, 75.1-ci maddəsinin birinci cümləsində, 75.2-ci maddəsinin birinci cümləsində, 75.3-cü maddəsinin birinci cümləsində, 75.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 75.5-ci maddəsində, 75.7-ci maddəsinin ikinci cümləsində, 75.8-ci maddəsində, 75.9-cu maddəsində, 75.10-cu maddəsinin birinci cümləsində, 75.13-cü maddəsinin birinci cümləsində, 75.14-cü maddəsinin birinci cümləsində, 76.1-ci, 76.2-ci maddələrində, 80.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 80.6-cı maddəsinin birinci cümləsində, 82.1-ci və 82.2-ci maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində, 84.2-ci maddəsinin birinci cümləsində, 86.1.1-ci maddəsində, 86.3-cü maddəsinin birinci cümləsində, 89.2-ci maddəsində, 90.1-ci maddəsinin ikinci cümləsində, 90.3-cü və 94.3-cü maddələrində, 101.2-ci maddəsində (birinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 102.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 102.4-cü maddəsində (birinci halda), 102.4-1-ci maddəsinin birinci və ikinci cümlələrində, 102.4-2-ci maddəsinin ikinci cümləsində, 102.4-3-cü maddəsinin üçüncü cümləsində, 102.5-ci maddəsində (birinci halda), 102.6-cı maddəsinin birinci cümləsində, 102.7-ci maddəsinin birinci cümləsində (birinci halda), 103.2-ci maddəsinin birinci cümləsində (birinci halda) "qurum" dedikdə Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə həyata keçirilən tikinti niyyətlərinə münasibətdə həmin Agentlik nəzərdə tutulur;*[18]

*4.7-4. həmin Məcəllənin 47.4.5-ci (birinci halda), 47.4.6-cı (birinci halda), 48.3.3-cü (birinci halda) və 89.2-ci (birinci halda) maddələrində, 90.1-ci maddəsinin ikinci cümləsində (birinci halda), 90.3-cü (birinci halda) və 94.3-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı şəhərinin inzibati ərazisində v ə 'Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında' Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində yerləşən tikinti obyektlərinə münasibətdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir;*[19]

4.8. həmin Məcəllənin 48.3.5-ci maddəsinin ikinci cümləsində *(birinci halda)*, 65.3-cü maddəsində *(dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə Azərbaycan*

*Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə)*, 67.4-cü maddəsinin birinci cümləsində *(dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə)* nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi*, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi* və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;[20]

4.9. həmin Məcəllənin 49.2.11-ci maddəsində *(birinci halda)* nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

4.10. həmin Məcəllənin 53.2-ci maddəsində, 53.3-cü maddəsinin birinci cümləsində, 54.4-cü maddəsinin birinci və üçüncü cümlələrində, 54.5-ci maddəsində, *58.2-ci maddəsinin ikinci cümləsində,* ~~55.3-cü maddəsinin üçüncü cümləsində,~~ 80.5-ci, *82.1-ci (üçüncü halda), 82.2-ci (üçüncü halda),* 92.1-ci maddələrində, 92.3-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 92.4-cü maddəsində, 92.5-ci maddəsinin birinci cümləsində, 92.8-ci maddəsinin birinci (hər iki halda), ikinci, dördüncü, beşinci və altıncı cümlələrində, 93.1-ci maddəsinin ikinci cümləsində *(Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin razılığı ilə)*, 94.2-ci maddəsində, 95.2-ci maddəsinin birinci cümləsində, 95.3-cü, 95.5-ci *(birinci halda)* maddələrində, 97.2-ci maddəsinin birinci cümləsində, 97.3-cü, 97.4-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;[21]

4.11. həmin Məcəllənin 80.4-cü maddəsinə əsasən məlumatlandırma icraatı qaydasında yaşayış evinin layihəsinin memarlıq-planlaşdırma bölməsinin uyğunluğunun yoxlanılması zamanı yaşayış evlərinin elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında tikintisinin yolverilməzliyi, habelə uyğunluğun yoxlanılması zamanı müvafiq tikinti ərazisində mövcud olan mühəndis-kommunikasiya xətləri və onların mühafizə zolağı barədə sifarişçiyə yazılı məlumat verilməsi yerli icra hakimiyyəti orqanları tərəfindən təmin edilir;

*4.12. həmin Məcəllənin 93.1-ci maddəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və yerli icra hakimiyyəti orqanları, Bakı şəhərinin inzibati ərazisində və ‘Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında’ Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlaının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində yerləşən, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə isə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*[22]

*4.13. həmin Məcəllənin 93.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi həyata keçirir;*[23]

*4.14. həmin Məcəllənin 49.2.11-ci maddəsində və 66.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulan məlumatlar Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə tikinti işləri həmin Agentliyin sərəncamına verilmiş torpaq sahəsində aparıldığı hallarda verilir;*[24]

*4.15. həmin Məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (birinci halda) müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;*

*4.16. həmin Məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;*[25]

*4.17. həmin Məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (dördüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən, o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;*

*4.18. həmin Məcəllənin 106-cı maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*4.19. Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 106-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq, həmin Məcəllənin 11.5-ci maddəsinə əsasən ödənilən xidmət haqqının 43 faizi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin hesabına köçürülür;*[26]

*4.20. həmin Məcəllənin 84.1-ci maddəsinin birinci cümləsində (üçüncü halda) və ikinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tikintiyə icazə alınması üçün ərizə Kiçik və orta biznes evlərində verildikdə – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, digər hallarda isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.*[27]

5. Bu Fərmana əsasən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən edilən normativ hüquqi aktlarda dəyişikliklər yalnız Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 sentyabr 2012-ci il
695

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 31 oktyabr 2014-cü il tarixli **311** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 06 noyabr 2014-cü il, 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 10, maddə 1196)**
2. 18 mart 2015-ci il tarixli **490** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 20 mart 2015-ci il, 063, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 3, maddə 270)**
3. 22 may 2015-ci il tarixli **525** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2015-ci il, 111, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 531)**
4. 16 sentyabr 2015-ci il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 sentyabr 2015-ci il, 206 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 1006)**
5. 23 iyun 2016-cı il tarixli **963** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 5 iyul 2016-cı il, 143 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1059)**
6. 18 noyabr 2016-cı il tarixli **1117** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1824 )**
7. 11 yanvar 2017-ci il tarixli **1193** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 yanvar 2017-ci il, 7; "Xalq" qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 40 )**
8. 24 may 2017-ci il tarixli **1421** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 825 )**
9. 13 noyabr 2017-ci il tarixli **1673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 noyabr 2017-ci il, 250 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2012)**
10. 6 mart 2018-ci il tarixli **1867** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 mart 2018-ci il, 53 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 417)**
11. 7 may 2018-ci il tarixli **42** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 12 may 2018-ci il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 910)**
12. 1 avqust 2018-ci il tarixli **226** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1676)**
13. 27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289)**
14. 28 dekabr 2018-ci il tarixli **459** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, 296 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2616)**
15. 19 mart 2019-cu il tarixli **594** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 28 mart 2019-cu il, 65 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 434 )**
16. 3 may 2019-cu il tarixli **674** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 4 may 2019-cu il, 97, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 826)**
17. 14 oktyabr 2019-cu il tarixli **836** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 oktyabr 2019-cu il, 230, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 10, maddə 1581)**
18. 22 may 2020-ci il tarixli **1034** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 23 may 2020-ci il, 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 559)**
19. 1 iyun 2020-ci il tarixli **1042** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 2 iyun 2020-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 684)**
20. 17 iyul 2020-ci il tarixli **1111** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 21 iyul 2020-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 891)**
21. 4 noyabr 2020-ci il tarixli **1172** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 noyabr 2020-ci il, 231 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1341)**
22. 12 avqust 2021-cu il tarixli **1423** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 avqust 2021-ci il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 915)**
23. 29 dekabr 2021-ci il tarixli **1537** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1402)**
24. 16 mart 2022-ci il tarixli **1631** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 mart 2022-ci il, 59 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 219)**
25. 25 iyul 2022-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 iyul 2022-ci il, 155 )**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 11 yanvar 2017-ci il tarixli **1193** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 yanvar 2017-ci il, 7;**

**“Xalq” qəzeti, 28 yanvar 2017-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1 , maddə 40** ) ilə 1.6.2-ci yarımbəndində “**müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin** ” sözləri “**Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq müəyyən etsin**” sözləri ilə əvəz edilmişdir.

[2] 13 noyabr 2017-ci il tarixli **1673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 14 noyabr 2017-ci il, 250 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2012**) ilə 1.6.9-cu yarımbənd ləğv edilmişdir.

[3] 13 noyabr 2017-ci il tarixli **1673** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 14 noyabr 2017-ci il, 250 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2012**) ilə 1.6.14-cü yarımbənd ləğv edilmişdir.

[4] 19 mart 2019-cu il tarixli **594** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 28 mart 2019-cu il, 65 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 434** ) ilə 1.6.18-ci yarımbənddə “**75.6-cı**” sözləri “**75.10-cu**” sözləri ilə əvəz edilmişdir.

[5] 6 mart 2018-ci il tarixli **1867** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 8 mart 2018-ci il, 53 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 417**) ilə 1.6.24-cü yarımbənddən “**vahid**” sözü çıxarılmışdır.

[6] 24 may 2017-ci il tarixli **1421** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 27 may 2017-ci il, 113, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 825** ) ilə 4.1-ci bənddə “**47.3-cü,**” sözlərindən sonra “**75.11-ci maddələrində, 84.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda),**” sözləri əlavə edilmişdir.

6 mart 2018-ci il tarixli **1867** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 8 mart 2018-ci il, 53 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 417**) ilə 4.1-ci bənddə “**75.11-ci**” sözləri “**47.4.5-ci (ikinci halda), 47.4.6-cı (ikinci halda), 75.11-ci maddələrində, 81.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 81.2-ci, 81.4-cü**” sözləri ilə əvəz edilmişdir və “**95.7-ci, 97.5-ci maddələrində**” sözləri “**92-1.1-ci, 92-1.2-ci (hər üç halda) maddələrində, 93.1-ci maddəsinin birinci cümləsində (üçüncü halda), 95.3-1-ci maddəsinin birinci cümləsində, 95.5-ci maddəsində (ikinci halda), 95.7-ci, 97.5-ci maddələrində, 101.2-ci maddəsində (ikinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 102.4-cü maddəsində (ikinci halda), 102.5-ci maddəsində (ikinci halda), 102.7-ci və 103.2-ci maddələrinin birinci cümlələrində (ikinci halda)**” sözləri ilə əvəz edilmişdir.

7 may 2018-ci il tarixli **42** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 12 may 2018-ci il, 106 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 910**) ilə 4.1-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 47.3-cü, *47.4.5-ci (ikinci halda), 47.4.6-cı (ikinci halda), 75.11-ci maddələrində, 81.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 81.2-ci, 81.4-cü maddələrində, 84.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda),* 90.4-cü, 92.10-cu, *92-1.1-ci, 92-1.2-ci (hər üç halda) maddələrində, 93.1-ci maddəsinin birinci cümləsində (üçüncü halda), 95.3-1-ci maddəsinin birinci cümləsində, 95.5-ci maddəsində (ikinci halda), 95.7-ci, 97.5-ci maddələrində, 101.2-ci maddəsində (ikinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 102.4-cü maddəsində (ikinci halda), 102.5-ci maddəsində (ikinci halda), 102.7-ci və 103.2-ci maddələrinin birinci cümlələrində (ikinci halda)* nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;~~

-

19 mart 2019-cu il tarixli **594** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 28 mart 2019-cu il, 65 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 434** ) ilə 4.1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

